# *ABŞ-da Məişət Zorakılığının Qurbanı Olan Mühacirlər üçün Qanunla Nəzərdə Tutulan Hüquqlar Haqqında Məlumatlar və Evlilik Əsaslı Viza ilə Mühacirət Haqqında Faktlar*

**Məqsəd:**
Mühacirlər xüsusilə həssasdırlar, çünki bir çoxu ingilis dilini bilmir, çox zaman ailə və dostlardan ayrı yaşayırlar və ABŞ qanunlarını anlamaya bilərlər. Bu səbəblərdən də mühacirlər çox zaman məişət zorakılığı hallarını polisə bildirməkdən və ya digər yardım formaları üçün müraciət etməkdən qorxurlar. Bu cür qorxu bir çox mühacirlərin zorakı münasibətlərdə davamlı qalmasına səbəb olur.

Bu kitabça məişət zorakılığının izahını verəcək və sizi ABŞ-da olan hüquqlarınız haqqında məlumatlandıracaq. Beynəlxalq Evlilik Vasitəçiliyinin Tənzimlənmə Aktı (IMBRA) ABŞ hökumətinin ABŞ-a mühacirət edən əcnəbi nişanlılara və həyat yoldaşlarına onların qanunla nəzərdə tutulan hüquqları və ABŞ vətəndaşı olan nişanlı və həyat yoldaşlarının cinayət və məişət zorakılığı tarixçələri haqqında məlumat verməsini tələb edir. IMBRA-nın məqsədlərindən biri mühacirət edən nişanlılara və həyat yoldaşlarına həm mühacirət prosesi, həm də münasibətlərində zorakılıqla qarşılaşdıqda necə kömək ala biləcəkləri haqqında dəqiq məlumat verməkdir.

**Məişət zorakılığı nədir?**
Məişət zorakılığı yaxın münasibətdə olan bir tərəfdaşın və ya həyat yoldaşının digər tərəfdaşı təhdid etməsi və ya zorakılıq tətbiq etməsi ilə müşahidə olunan davranış tərzidir. Zorakılıq fiziki zərər, məcburi cinsi əlaqə, emosional manipulyasiya (o cümlədən təcrid etmə və ya qorxutma), iqtisadi və/yaxud mühacirətlə əlaqəli təhdidlərdən ibarət ola bilər. Ən çox qeydə alınan məişət zorakılığı hadisələri kişilərin qadınlara və ya uşaqlara qarşı zorakılığı ilə bağlı olsa da, kişilər də məişət zorakılığı qurbanı ola bilər.

Məişət zorakılığı cinsi təcavüz, uşaq zorakılığı və digər zorakı cinayətləri əhatə edə bilər. Cinsi təcavüz sizin razılığınız olmadan baş verən istənilən cinsi əlaqə növüdür və hər kəs tərəfindən, hətta həyat yoldaşınız tərəfindən də törədilə bilər. Uşaqlara qarşı zorakılıq hallarına fiziki zorakılıq (təsadüfən baş verməyən hər hansı bir zədələnmə, o cümlədən həddi aşan cəza), fiziki laqeydlik (qida, sığınacaq, tibbi yardım və ya nəzarətin təmin edilməməsi), cinsi zorakılıq və emosional zorakılıq (təhdidlər, habelə sevgi, dəstək və ya məsləhətləri əsirgəmə) daxildir.

ABŞ-da məişət zorakılığı, cinsi təcavüz və uşaq zorakılığı bütün hallarda qeyri-qanunidir. ABŞ-da olan bütün insanların (irq, rəng, din, cins, yaş, etnik mənsubiyyət və ya mühacirət statusundan asılı olmayaraq) zorakılıqdan qorunmasına qanunla zəmanət verilir. Məişət zorakılığı qurbanı olan hər kəs – mühacirət və ya vətəndaşlıq statusundan asılı olmayaraq – kömək ala bilər. Məişət zorakılığı qurbanı mühacirdirsə, o, mühacirlər üçün nəzərdə tutulan müdafiə tədbirlərinə uyğun gələ bilər.

Evinizdə məişət zorakılığına məruz qalırsınızsa, siz tək deyilsiniz. Bu kitabça sizə ABŞ qanunlarını anlamaqda və ehtiyacınız olarsa necə yardım ala biləcəyiniz barədə məlumatlı olmaqda köməklik etmək üçün nəzərdə tutulub.

**ABŞ-da məişət zorakılığı qurbanlarının qanunla nəzərdə tutulan hüquqları hansılardır?**
ABŞ-da mühacirət və ya vətəndaşlıq statusundan asılı olmayaraq olan bütün insanlar, həm mülki, həm də cinayət qanunvericiliyi ilə təmin edilən təməl müdafiə hüquqlarına malikdir. Ailə məsələlərini tənzimləyən qanunlar sizə aşağıdakıları təmin edir:

- Sizə və uşağınıza (uşaqlarınıza) mühafizə orderi almaq hüququ.
- Yoldaşınızın razılığı olmadan qanuni ayrılma və ya boşanma hüququ.
- Nikah dövründə əldə olunmuş müəyyən birgə mülkiyyəti bölüşmək hüququ. Boşanma hallarında, məhkəmə sizin və yoldaşınızın birgə mülkiyyətində olan hər hansı əmlakı və ya maliyyə aktivlərini böləcək.
- Uşağınızın (uşaqlarınızın) himayənizə verilməsi və maliyyə dəstəyi almaq üçün müraciət etmək hüququ. Yaşı 21-dən kiçik olan uşaqların valideynləri onlarla birgə yaşamayan hər bir uşaq üçün çox zaman uşaq təminatı ödəməli olur.

Ailə qanunvericiliyi ilə bağlı bu seçimlərdən hər hansı birinin sizə necə təsir və ya kömək edə biləcəyini müzakirə etmək üçün mühacirlərlə işləyən bir ailə vəkili ilə məsləhətləşin.

ABŞ qanunlarına görə, hər hansı bir cinayət qurbanı, mühacirət və ya vətəndaşlıq statusundan asılı olmayaraq, kömək üçün polisə zəng edə və ya mühafizə orderi ala bilər.

Siz və ya uşağınız (uşaqlarınız) təhlükədəsinizsə, 911 nömrəsində polisə zəng edin. Polis nişanlınızın, həyat yoldaşınızın, partnyorunuzun və ya başqa bir şəxsin cinayət törətdiyinə inandıqları təqdirdəhəmin şəxsi həbs edə bilər. Siz baş verən hər hansı zorakılığı, o cümlədən keçmişdə baş verənləri, polisə bildirməli və hər hansı zədələrinizi göstərməlisiniz. Mühacirət və ya vətəndaşlıq statusundan asılı olmayaraq hər bir şəxs cinayət haqqında məlumat verə bilər.

Eyni şəkildə, əgər siz məişət zorakılığı qurbanısınızsa, mühafizə orderi almaq üçün məhkəməyə müraciət edə bilərsiniz. Məhkəmə tərəfindən verilən mühafizə və ya məhdudlaşdırıcı order zorakılıq etmiş şəxsin sizə, uşağınıza (uşaqlarınıza) və ya digər ailə üzvlərinizə zəng etməsinə, əlaqə saxlamasına, yaxınlaşmasına və ya zərər verməsinə qadağa qoya bilər. Əgər zorakılıq edən şəxs məhdudlaşdırıcı orderi pozarsa, siz polisə müraciət edə bilərsiniz və polis onu həbs edə bilər. Məhdudlaşdırıcı orderlər üçün ərizə formaları əksər məhkəmələrdə, polis idarələrində, qadın sığınacaqlarında və hüquqi xidmət ofislərində mövcuddur.

Zorakılıq etmiş şəxs sizi cinayətdə ittiham edirsə, mühacirət və ya vətəndaşlıq statusunuzdan asılı olmayaraq, sizin təməl hüquqlarınız var, o cümlədən: vəkillə danışmaq hüququ; vəkilin iştirakı olmadan suallara cavab verməmək hüququ; öz müdafiəniz üçün danışmaq hüququ. Bunun üçün mühacirət və cinayət işləri ilə məşğul olan vəkillə danışmaq vacibdir.

**ABŞ-da məişət zorakılığı və cinsi təcavüz qurbanları üçün hansı xidmətlər mövcuddur?**
ABŞ-da cinayət qurbanı olmuş şəxslər, mühacirət və ya vətəndaşlıq statusundan asılı olmayaraq, hökumət yaxud qeyri-hökumət agentlikləri tərəfindən təmin edilən yardımlar ala bilərlər ki, bunlara məsləhət, tərcüməçilər, təcili yaşayış yeri və hətta maliyyə yardımı daxil ola bilər.

Aşağıda qeyd olunan ölkə miqyaslı telefon xidmətləri və ya "qaynar xətlər" günün 24 saatı ərzində qurbanlara təmənnasız yardım etmək üçün hazırlanmış operatorlarla təmin edilib. Burada tərcüməçilər mövcuddur və bu nömrələr sizi yerli ərazinizdə qurbanlar üçün nəzərdə tutulan digər ödənişsiz xidmətlərlə, o cümlədən təcili yaşayış yeri, tibbi yardım, məsləhət və hüquqi məsləhətlərlə əlaqələndirə bilər. Əgər vəkil üçün ödəniş etməyə imkanınız yoxdursa, cinayət və ya məişət zorakılığı qurbanı olmuş mühacirlər üçün nəzərdə tutulan ödənişsiz və ya az ödənişli hüquqi yardım proqramına uyğun gələ bilərsiniz.

Məişət Zorakılığı üzrə Milli Qaynar Xətt
1-800-799-SAFE (1-800-799-7233)
1-800-787-3224 (TTY)
www.ndvh.org

Zorlama, Zorakılıq və İnsest Milli Şəbəkəsinin (RAINN) Cinsi Təcavüz Qaynar Xətti
1-800-656-HOPE (1-800-656-4673)
www.rainn.org

İtkin Düşmüş və İstismar Olunan Uşaqlarla bağlı Milli Mərkəz
1-800-THE-LOST (1-800-843-5678)
www.missingkids.com

Cinayət Qurbanları üçün Milli Mərkəz
1-800-FYI-CALL (1-800-394-2255)
1-800-211-7996 (TTY)
www.ncvc.org

QEYD: Bunlar əsasən təhlükəsizlik və müdafiə missiyası olan təşkilatlardır.

**Əgər mən məişət zorakılığı, cinsi təcavüz və ya digər cinayət qurbanıyamsa, mənim üçün hansı mühacirət seçimləri mövcuddur?**
Məişət zorakılığı, cinsi təcavüz və bəzi digər spesifik cinayətlərin qurbanı olan mühacirlərin özlərinə və uşaqlarına qanuni mühacirət statusu almağa müraciət etməsi üçün üç əsas yol mövcuddur. Qurbanın müraciəti məxfi saxlanılır və sizin müraciət etdiyiniz barədə heç kimə, o cümlədən zorakılıq etmiş şəxsə, cinayətkara və ya ailə üzvünə məlumat verilməyəcək.

- Qadınlara Qarşı Zorakılıq Aktı (VAWA) çərçivəsində hüquqi status almaq üçün şəxsi müraciətlər
- VAWA çərçivəsində ölkədən çıxarılmanın ləğvi
- U qeyri-mühacir statusu (cinayət qurbanları)

Bu mühacirət imtiyazlarının hər biri üçün müəyyən tələblər mövcuddur və bu tələblərə uyğunluq öz təsdiqini tapmalıdır. Məişət zorakılığı qurbanları ilə işləyən bir immiqrasiya vəkili ilə məsləhətləşərək, bu mühacirət imtiyazlarından hər hansı birinin sizə necə təsir edə biləcəyini və ya kömək edə biləcəyini müzakirə edin.

**Evlilik əsaslı mühacirət prosesi necə işləyir?**
Evlilik əsaslı mühacirət prosesi ABŞ-da hüquqi mühacirət statusunu əldə etmək və zamanla vətəndaşlıq ala bilmək üçün bir neçə mərhələ nəzərdə tutur. Bu mərhələlər sizin ABŞ-a gəldiyiniz evlilik əsaslı vizanın növü və digər amillərdən asılıdır. Aşağıdakı məlumatlar bu viza növlərindən bəzilərinin ümumi təsviri və sizin qanunla nəzərdə tutulan hüquqlarınız haqqında məlumatlardır.

*K-1 qeyri-mühacir statusu* (ABŞ vətəndaşının nişanlısı kimi): Siz ölkəyə girişdən sonrakı 90 gün ərzində ABŞ vətəndaşı ilə evlənməli və ya ABŞ-ı tərk etməlisiniz. Sizin üçün müraciət etmiş və ABŞ vətəndaşı olan nişanlınız ilə evləndikdən sonra, siz Daimi Yaşayış Qeydiyyatı və ya Statusun Dəyişdirilməsi Ərizəsi (Form I-485) ilə müraciət etməlisiniz. Əgər sizin I-485 Formanız təsdiqlənərsə, statusunuz K qeyri-mühacir statusundan şərti daimi rezident statusuna dəyişdiriləcək. Bu şərti statusunuz iki il müddətinə olacaq.

Əgər siz K-1 vizanıza sponsorluq etmiş ABŞ vətəndaşı ilə evlənmədən ABŞ-da qalırsınızsa, yaxud başqası ilə evlənirsinizsə, bu zaman vizanızın şərtlərini pozmuş olur, hüquqi statusunuzu itirir və ölkədən çıxarılma prosedurları və ya digər cəzalarla qarşılaşa bilirsiniz.

*K-3 qeyri-mühacir statusu* (ABŞ vətəndaşının həyat yoldaşı kimi): Ailə əsaslı viza müraciətinin (I-130) təsdiqini gözləyərkən sizə müvəqqəti olaraq ABŞ-a giriş icazəsi verilir. I-130 təsdiqləndikdən sonra, siz qanuni daimi yaşayış (yaşıl kart) hüququna malik olursunuz və bunun üçün Daimi Yaşayış Qeydiyyatı və ya Statusun Dəyişdirilməsi Ərizəsi (Form I-485) ilə müraciət etməlisiniz.

Bütün digər evlilik əsaslı mühacirət statusu sahibləri ABŞ konsulluğundan onlara verilən məlumatlara əsaslanmalıdır. Əlavə məlumat http://www.uscis.gov saytından əldə oluna bilər.

**Evlilik fırıldaqları üçün cəzalar nələrdir?** Evlilik fırıldağı etmiş mühacirlər ölkədən çıxarılma prosedurlarına məruz qala bilər və gələcəkdə ABŞ-da mühacirət imtiyazları almaqdan məhrum edilə bilərlər. Evlilik fırıldağına görə məhkum olunma beş (5) ilədək həbs cəzası və 250.000 ABŞ dollarına (ABŞ valyutası) qədər cərimə ehtiva edə bilər.

**Əgər mənim üçün mühacirət sənədlərini təqdim etmiş ABŞ vətəndaşı ilə evliyəmsə, mənim mühacirət statusum nədir?**
Əgər sizin Form I-485 təsdiqlənən zaman iki ildən az müddət evli olmusunuzsa, USCIS tərəfindən şərti rezident statusu alacaqsınız. Şərti rezidentliyin ikinci ildönümündən doxsan (90) gün əvvəl siz və həyat yoldaşınız qanuni rezident statusunuzun şərtiliyinin aradan qaldırılması üçün birgə müraciət etməlisiniz. Bunun üçün, siz evliliyin "dürüst" və hələ də qüvvədə olduğunu sübut etməlisiniz. Şərtilik ləğv edildikdən sonra, siz ABŞ vətəndaşı olan həyat yoldaşınızdan asılı olmayan daimi yaşayış hüququna malik olursunuz.

Əgər Form I-485 təsdiqlənən zaman iki ildən artıq evli olmusunuzsa, USCIS tərəfindən daimi rezident statusu alacaqsınız. Bu tarixdən etibarən mühacirət statusunuz üçün artıq ABŞ vətəndaşı olan həyat yoldaşınızdan asılı olmayacaqsınız.

Şərti rezidentlərin bu şərtiliyin aradan qaldırılması üçün həyat yoldaşı ilə birgə ərizə təqdim etmə tələbinin ləğvi ilə bağlı müraciət etməyə imkan verən üç hal mövcuddur: 1) Şərti rezidentin ABŞ-dan çıxarılması aşırı çətinliklərə səbəb olacaq; YAXUD 2) Bu evliliyə ölüm xaricində başqa bir səbəbdən qanuni şəkildə xitam verilib və statusun şərtiliyinin ləğvi üçün vaxtında müraciət edilməməsi müraciət edən şəxsin təqsiri ilə baş verməyib;

YAXUD 3) Evlilik müddətində ABŞ vətəndaşı və ya qanuni daimi rezident olan həyat yoldaşı, şərti rezidenti zorakılığa və ya aşırı qəddarlığa məruz qoyub. Bu üç halın hər biri ilə bağlı müraciətlər Form I-751 əsasında edilir və hər bir halda evliliyin "yaxşı niyyətli" və fırıldaq olmadığını sübut etmək tələb olunur.

**ABŞ hökuməti başqa hansı yollarla əcnəbi nişanlıları və həyat yoldaşlarını öz hüquqları haqqında məlumatlandırmağa və onları və uşaqlarını zorakılıqdan qorumağa çalışır?**
Beynəlxalq Evlilik Vasitəçiliyinin Tənzimlənmə Aktı (IMBRA) evlilik əsaslı mühacirət prosesini əcnəbi nişanlılara və həyat yoldaşlarına kömək məqsədilə dəyişdirən ABŞ qanunudur. IMBRA-nın tələbinə görə, ABŞ hökuməti mühacirət edən əcnəbi nişanlıları və həyat yoldaşlarını onlara viza sponsorluğu etmiş partnyorlarının zorakılığından qorunmaqda köməklik edəcək məlumat və özünə yardım vasitələri ilə təmin etməlidir. Mühacirət edən nişanlıların və həyat yoldaşlarının çox zaman ABŞ qanunları ilə tanışlığı olmur və evdəki zorakılıqdan yayınmaq üçün ailə və ya dostlardan dəstək almırlar.

IMBRA bu kitabçanın yazılmasını və yayılmasını tələb edib ki, siz zorakılığa məruz qalacağınız təqdirdə ABŞ-da sizə kömək edə biləcək qanunlar və xidmətlər haqqında məlumat əldə edəsiniz. IMBRA zorakı cinayət tarixçəsi olan ABŞ vətəndaşlarının əcnəbi nişanlı(lar) üçün bir neçə viza sponsorluğu etməsinin qarşısını alır. IMBRA qanunu ABŞ vətəndaşı olan sponsorlar haqqında USCIS tərəfindən aparılan cinayət tarixçəsi yoxlamasının, habelə viza sponsorluq müraciətinin surətini ABŞ vətəndaşlarının əcnəbi nişanlılarına və həyat yoldaşlarına verməyi ABŞ hökumətindən tələb edir.

**ABŞ hökuməti "Beynəlxalq Evlilik Vasitəçilərini" necə tənzimləyir?**
Əgər bir agentlik "beynəlxalq evlilik vasitəçisi" tələblərinə cavab verirsə, o, sizinlə əlaqə qurmaq istəyən və ABŞ-dan olan müştərisi haqqında məlumatları, o cümlədən seksual xarakterli cinayətlər törədənlərə dair Federal və Ştat ictimai məlumat bazalarında olan məlumatları sizə təqdim etməli, habelə sizin əlaqə məlumatlarınızı ABŞ-dan olan müştərisinə verməmdən əvvəl sizin yazılı razılığınızı almalıdır. Agentlik bu kitabçanın bir nüsxəsini sizə təqdim etməlidir. Əgər yaşınız 18-dən azdırsa, agentliyin sizinlə iş görməsinə icazə verilmir.

**ABŞ vətəndaşı olan nişanlımın və ya həyat yoldaşımın cinayət tarixçəsinə dair məlumatlara etibar edə bilərəm?** Agentlik tərəfindən toplanan cinayət tarixçəsi müxtəlif ictimai mənbələrdən və həmçinin ABŞ vətəndaşı olan müştərilərin mühacirət ərizələrində verdiyi məlumatlardan əldə olunur. USCIS-in ABŞ-da olan bütün cinayət tarixçəsi məlumat bazalarına girişi yoxdur. ABŞ vətəndaşı olan sponsorun müraciətindəki məlumatlar həqiqəti əks etdirməyə bilər. Həmçinin, o da mümkündür ki, ABŞ vətəndaşının zorakı davranış tarixçəsi olduğu halda, o, heç vaxt həbs və ya məhkum edilməmiş olsun. Buna görə də, sizə verilən cinayət tarixçəsi məlumatları tam olmaya bilər. IMBRA-nın məqsədi mühacirət edən nişanlılara və həyat yoldaşlarına mövcud məlumatları və resursları verməkdir. Lakin son nəticədə, münasibətlərinizdə özünüzü təhlükəsiz hiss edib-etmədiyinizi özünüz təyin etməlisiz.

**Məişət zorakılığı qurbanları olan əcnəbi nişanlılar və ya həyat yoldaşları eyni zamanda insan alveri qurbanı da ola bilərmi?**
Bəzən məişət zorakılığı ilə yanaşı olaraq insan alveri kimi digər istismar növləri də həyata keçirilə bilir ki, bu istismar halları özündə məcburi və ya zor tətbiq olunan əməyi, xidmətləri və ya ödənişli seksual fəaliyyətləri ehtiva edir.

İnsan alveri ilə bağlı yardım aşağıdakı yerlərdə əldə oluna bilər:

İnsan Alverinə dair Milli Resurs Mərkəzi 1-888-373-7888 (günün 24 saatı, həftənin 7 günü)
www.acf.hhs.gov/trafficking

İnsan Alverinə və İşçi İstismarına qarşı İşçi Qrupun Qaynar Xətti, ABŞ Ədliyyə Departamenti 1-888-428-7581 (Bazar ertəsi - Cümə, 9:00-dan 17:00-a qədər)
www.usdoj.gov/crt/crim/tpwetf.php

Əlavə məlumatı bizim veb səhifəmizdən və ya aşağıda qeyd olunan pulsuz nömrəyə zəng etməklə əldə edə bilərsiniz.

**USCIS barədə Ümumi Məlumat üçün**
ABŞ-dan aşağıdakı pulsuz nömrəyə zəng edin:
**1-800-870-3676** və ya
internet səhifəmizə baş çəkin:
http://www.uscis.gov